Qeyd edək ki, Beynəlxalq Uşaq Rəsm Müsabiqəsində mərkəzin yetirmələrindən 18 gənc rəssam yüksək yerlər tutmağa nail olub. Onlardan 7 nəfər I yerə (qızıl medala), 4 nəfər II yerə, 7 nəfər isə III yerə layiq görülüb.

Mərasimdə Yunanıstanın Azərbaycandakı səfiri İoannis Metaksas da iştirak edib.

Səfir Mərkəzin fəaliyyəti ilə tanış olub, gənc rəssamların əsərlərindən ibarət sərgiyə baxıb.

Sonra Beynəlxalq Uşaq Rəsm Müsabiqəsi qaliblərinə medal və diplomlar təqdim edilib.

Tədbirin sonunda Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin bədii kollektivləri konsert proqramı ilə çıxış edib.